**Lalə Famil qızı RƏHİMLİ**
Azərbaycan İlahiyyat İnstitutu Dinin tarixi və fəlsəfəsi ixtisasının doktorantı
E-mail: lala.rahimli@inbox.ru
ORCID address: 0000-0002-9118-2078

# DÜNYADA SÜLHÜN TƏMİN EDİLMƏSİNDƏ DİNLƏRARASI DİALOQUN ROLU

**Xülasə**

Bilindiyi kimi dünyada baş verən ictimai, dini, siyasi problemlər sosial sülhün yox olmasına səbəb olub. Müəyyən tarixi hadisələr, baş vermiş fəlakətlər, törədilmiş cinayətlər, ədalətsizlik, siyasi gərginlik və haqsızlıqlar müxtəlif din mənsublarının, müxtəlif xalqların bir-birindən uzaqlaşmasına, bir-birinə nifrətlə yanaşmasına gətirib çıxarıb. Eyni zamanda bugün dünya sülhünün inkişafına maneçilik törədən, xüsusən də, dini qardaşlığa qarşı çıxan kifayət qədər radikal yanaşmalar da mövcuddur.

Həmçinin dünyada insanın hüquq-azadlıqlarından məhrum edilməsi hallarına, qadın azadlığının tanınmaması, uşaqların, yaşlıların, qaçqınların xüsusi qayğı və diqqətdən kənar qalması hallarına, müxtəlif din mənsublarının öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirə bilməməsi, dini etiqad azadlıqlarının olmaması hallarına, dini ayrıseçkiliyə və dini qısnamalara rast gəlinir.

Lakin buna baxmayaraq dünyanın bir çox yerlərində bu kimi halların aradan qaldırılması yolunda müəyyən addımlar atılır. Dini fəaliyyət sahəsində uğurlu siyasət həyata keçirilir.

Məqalədə fərqli din mənsublarının bir araya gələrək sülh çağırışları etməsi, birlikdə etdikləri sülh bəyannaməsinin prinsipləri, multikultural və tolerant dünya yaratmaq üçün görüləcək işlər barəsində də araşdırma aparılır.

**Açar sözlər:** *dinlərarası dialoq, dünya sülhü, birgəyaşayış, ekstremizm, dini liderlərin görüşü*

**DOI:** https://doi.org/10.54414/HMKB9652

## Giriş

Təqdim edilmiş məqalənin əsas məqsədi müasir dünyamızdakı qlobal problemləri, haqsızlıqları, ədalətsizlikləri ön plana çəkərək dini hər cür təhrif və təbdildən qorumaq, destruktiv və radikal qüvvələrin gücün azaldaraq dayanıqlı sülhü təmin etmək yolunda atılmış ciddi addımların sayını çoxaltmaqdır.

Bugün dünyanın bir çox konflikt, münaqişə, gərginlik, ayrıseçkilik, bölünmə, qruplaşma və anlaşılmazlıqlarla dolu olduğunu nəzərə alsaq, bu məqalədə məsələyə həm Şərq, həm də Qərb prizmasından baxılmış və dinlərarası dialoqun nə dərəcədə önəmli faktor olduğu ortaya qoyulmuşdur.

Məqalədə əslində bir çox dinlərin sülh, əmin-amanlıq gətirməsindən və bu dinlərdə bütün varlıqlar üçün dünya, axirət səadətinə aparan hökmlərin olması fikrinin təlqin olunmasından bəhs edilmişdir. Tövrat, İncil və Quran ilə kitablaşan üç böyük dinin təmsilçilərinin, demək olar ki, hər bir ölkədə dialoq platformaları təşkil edərək, aralarındakı fərqləri bir kənara qoyub “dindar” adı altında birlikdə hərəkət etmələrinin dünyamızda birgəyaşayışın, sülhün, dostluğun təmin edilməsində əvəzsiz rolu da xüsusilə qeyd edilmişdir.

Dünyamızda baş verən uşaq cinayətlərindən, qadın azadlığının tanınmasından, sosial-siyasi gerilik, yersiz mübahisələr, dini ayrıseçkilik, çoxmillətlilik, tarixi təzyiqlər və istismarlardan qorunmaq üçün bir sıra dövlətlərin təşəbbüsü ilə həyata keçirilən tədbirlərdən geniş şəkildə bəhs edilmişdir. Eyni zamanda qeyd edilməlidir ki, bu tədbirlərdə sivilizasiyalı münaqişələrin, qarşıdurmaların neqativ nəticələrinin necə aradan qaldırılması məsələsinə də toxunulmuşdur.

Daha sonra dünyada sülhün bərqərar olunması yolunda atılmış ciddi addımların, bağlanmış müqavilələrin, dini liderlərin iştirakı ilə keçirilmiş iclasların gələcəkdə verəcəyi töhfələr də qeyd olunmuşdur.

## I. Dünyada baş verən dini, siyasi və sosial problemlər.

Bugün dövlətlər arasında qardaşlıq və dostluq şəraitində keçən görüşlərdə müasir dünyanın sevincləri, kədərləri, böhranları, həm elmi-texniki tərəqqi, həm də yoxsulluq müharibələri, dünyanın müxtəlif yerlərində insanların yaşadığı acılar, silahlanma yarışının nəticəsi, sosial ədalətsizlik, korrupsiya, bərabərsizlik, əxlaqi pozulma, terrorizm, irqçilik, məsrəfçilik və s. haqqında qarşılıqlı söhbətlər edilir.

Bildiyimiz kimi dünya dini, etnik və təbii fəlakətlərin nəticəsində firavanlıq və sülh şəraitində həyat sürməyi itirmiş və istər fərdi, istərsə də sosial, ictimai miqyasda bir çox problemlərlə üz-üzə gəlmişdir. Dünyamızda sadəcə dinin səbəb olduğu sosial sülhün yox olması prioritet problemlərdəndir. İrlandiyadakı Katolik-protestant qarşıdurması, İslam ölkələrindəki fundamentalist cərəyanların səbəb olduğu sosial və siyasi gerilik, Beyrutda və Balkanlardakı Xristian-Müsəlman mübarizələri ciddi mənada dünya sülhünü təhdid edən ünsürlər olmuşdur və olmağa davam etməkdədir.

Bügun dünyada tolerantlıq, dini inkişaf, "sivilizasiyaların toqquşması" prosesi, cəmiyyət daxili parçalanmalar baxımından dini, etnik zəmində konfliktlər yaşanır.

Müasir dövrümüzdə insan hüquq və azadlıqlarının təmin və müdafiə olunmasına, insanın konstitusion statusunun müəyyən olunmasına, monosentrik baxışlara malik cəmiyyəti dəyişərək demokratik, plüralist, siyasi diskussiya edə bilən bir cəmiyyətə çevrilməsinə səy göstərmək lazımdır. Yalnız bütün bunların nəticəsində sosial konstruksiya, inkişaf etmiş cəmiyyət və dövlət, modernləşdirilmiş iqtisadiyyat, sosialmədəni transformasiyaya yönəlmiş mühit yarana bilər.

Bütün bunları həyata keçirmək üçün, Şərq və Qərb sivilizasıyasının sintezindən yaranan, yeni dövrün ruhunu təcəssüm etdirən zəngin və optimal cəmiyyətin, insanlığın qurulması üçün dövlətlərarası və dinlərarası dialoqlar edilməlidir.

Müasir sivilizasiyanın xüsusilə, inkişaf etmiş ölkələrin elm, texniki, tibb, sənaye sahəsində əldə etdiyi müsbət cəhətlər yüksək qiymətləndirilsə də, bununla belə qeyd edilməlidir ki, bu böyük təqdirəlayiq tarixi sıçrayışlar özü ilə bərabər beynəlxalq davranışları, nizam etikasını azaldıb, xüsusilə məyusluq, ümidsizlik hissinin yayılmasını sürətləndirib. Çoxlarını ya ateist, dini-ifratçılıq burulğanına, ya da kor-koranə fanatik dini burulğana sövq edib, habelə bəzilərini isə kollektiv şəkildə özünü məhvetmə formalarını qəbul etməyə vadar edib.

Tarix təsdiq edir ki, fanatik, milli, dini ifratçılıq dünyada istər Qərbdə, istərsə də Şərqdə öz neqativliyini göstərib. Belə ki, dünyanın bir çox məkanında özünü göstərməyə başlayan soyuq müharibənin əlamətlərini də bu yerdə vurğulamaq lazımdır. Bu soyuq müharibə nəticəsində sonu bilinməyən faciəli vəziyyətlər, silah-sursat ehtiyatından istifadə edərək, partlayışlar törədərək ölənlərin sayının artdığı vəziyyətlər yaranıb. Bütün bunlar dünyada dar maddi maraqların nəzarət etdiyi gələcək qorxusu, məyusluğu, ümidsizliyi yaradıb.

## II. Dünya dinlərinin əsas hədəfi. Birliyə və birgəyaşayışa çağırış kimi.

Bir çox dinlərin ilk və ən mühüm hədəfi Allaha inanmaq, ibadət etmək, bütün insanları bu kainatın onu idarə edən, bizi ilahi hikmətlə yaradan, bizə qorumağımız üçün dünya bəxş edən Allahdan asılı olduğuna inandırmaqdır.

Həmçinin dinlər heç vaxt qan tökmək, zorakılıq, dözümsüzlük, düşmənçilik, nifrət hissi oyatma və müharibə mövqeyində olmayıb. Əslində dünyada baş verən faciələrin bir qismi dindən yayınmanın, siyasətdə dinlərin istismarının, tarixin bəzi mərhələlərindəki din adamlarının yanlış təriqət şərhlərinin nəticəsidir. Halbuki, həmin şəxslərin bəziləri dini həqiqətlərlə əlaqəsi olmayan bəyanlardan insanları qorumaq üçün dini vəzifələrə təyin olunmuşdular.

Tarixin müxtəlif dövrlərində də dünya dinlərininin bir çoxunun əsas hədəfi sülh mövqeyində olub, hər bir din mənsubları da bu sülh sərhədləri içərisində qalmağa məcbur edilib. Bugün dünya əhalisinin yarıdan çoxunu Yəhudi, Xristian və Müsəlmanlar təşkil edir, əgər onlar öz dinlərinin əmr etdiklərinə sadiq qalmış olsalardı, bugün dünyadakı sülhün bərpası üçün son dərəcə mühüm işlər görülmüş olardı. [1, s. 195-200]

Bilindiyi kimi, hər üç dinin ən əsas mirası "Tanrının birliyi" hər şeyi yaradanın Allah olduğu və Allahın rəhmətini və bərəkətini bütün insanlıqdan əsirgəmədiyi mövzusudur. Hər üç din monoteist üslubda bu mirası davam etdirir.

Eyni zamanda Yəhudiliyin insan canına qəsd etməyi qadağan etməsi də bu dinin insan həyatına necə hörmətlə yanaşdığını göstərir. Bugün din adına edilən terrorizmin insan həyatı ilə əlaqəli bütün hərəkətlərini Yəhudi dini heç vaxt yüksək qiymətləndirməmişdir. Bu baxımdan Fələstindəki günahsız insanların qətli nə Yəhudi dininin, nə də İslam dininin icazə verdiyi bir hərəkət deyil. Bu yalnız siyasi azqınlığın və fanatizmin nəticəsi ola bilər. Bunun səbəbi cəhalətdir.[2, s.152]

Buddizimin görkəmli nümayəndələrindən Kral Aşhokanın da sülh ilə əlaqəli bu sözləri vardır: “Digər dinlərə hörmətlə yanaşan, öz dininə də hörmətlə yanaşmış olar, digər dinləri pisləyən də öz dininə zərər vermiş olar. [3, s.140]

Eyni şəkildə Qurani-Kərimdə də  sülh ilə əlaqəli bunlar buyrulmuşdu:

وَلاَ تَسُبُّواْ الَّذِينَ يَدْعُونَ مِن دُونِ اللّهِ فَيَسُبُّواْ اللّهَ عَدْوًا بِغَيْرِ عِلْمٍ كَذَلِكَ زَيَّنَّا لِكُلِّ أُمَّةٍ عَمَلَهُمْ ثُمَّ إِلَى رَبِّهِم مَّرْجِعُهُمْ فَيُنَبِّئُهُم بِمَا كَانُواْ يَعْمَلُونَ

“Müşriklərin Allahdan başqa inandıqları bütlərə söyməyin ki, cəhalətlə həddlərini aşaraq Allaha söyməsinlər.” (Ənam surəsi 6/108).  Bu ayədən də bəlli olduğu kimi, hər hansı bir xalqın, yaxud fərdin müqəddəs hesab etdiyi kitaba, bütlərə söyməmək və onları təhqir etməmək lazımdır. Çünki bu kimi hərəkətlər nəticəsində onlar da Allaha qarşı nalayiq sözlər sərf edə bilər yaxud dini təhqir edə bilərlər.

İstər Qurani-Kərimin, istərsə də Aşhokanın digər dinlərə qarşı yanaşması din adına edilən və ediləcək müharibələrin qarşısının alınması və sülhə çağırış hədəfini güdür. Yuxarıdakı nümunələrdə qeyd olunduğu kimi, başqasının müqəddəs inancına müdaxilə edən  öz müqəddəs inancına müdaxilə etmiş olar. Bu isə sülhə yox, müharibənin davam etməsinə gətirib çıxaracaqdır. Halbuki, heç bir din öz əsasında müharibəni dəstəkləmir, əksinə bütün bəşəriyyəti ictimai sülh üçün səy göstərməyə çağırır.

***Dünyada dinlərarası dialoq kontekstində sülhün bərqərar olması üçün atılan addımlar***

Bilindiyi kimi bugün sabitliyin və dinlərarası harmoniyanın bərqərar olması üçün din adamlarının dini liderlərin gördüyü işlər danılmazdır. Onlar təmsil etdikləri dinin daşıyıcıları arasında söz sahibi olduqları üçün onların dediyi sözlər, etdiyi hərəkətlər daha geniş auditoriyaya təsir etmə gücündə olur. [1, s. 197]

Lakin bəzi din adamları öz maraqları və mənafeləri naminə dindən fərqli istiqamətlərdə istifadə edərək dinə xələl gətirmişdilər. Bütün bunların qarşısını almaq üçün bugün bir sıra addımlar atılır, dini yaxşı təqdim edə biləcək bütün tədbirlər görülür.

Bunun üçün seperatizm, terrorçuluqla mübarizə aparılır, maddi-mənəvi həyata ziyan verə biləcək bütün neqativ halların qarşısı alınır, müasir dövrün qlobal problemlərini aradan qaldırmaq üçün dünya ictimaiyyəti ilə qarşılıqlı-faydalı əməkdaşlıq edilir, dövlətlərin və xalqların təhlükəsizliyinə can atılır, ikitərəfli əlaqələrdə beynəlxalq hüquq normalarına, sivilizasiyalı birgəyaşayış qaydalarına əməl edilir.

Sülhyaratma istiqamətində dünya miqyasında görülmüş vacib işlərdən biri Rusiya Dinlərarası Şurasının təşəbbüsü ilə çağrılmış üçgünlük dini liderlərin birinci ümumdünya zirvə toplantısıdır. Bu foruma 40 ölkədən 200-dən çox dini lider gəlmişdir.Bu forumun keçirilməsində əsas məqsəd sivilizasiyaların münaqişəsinin mümkün nəticələrini və qarşıdurmanın nəyə gətirib çıxara biləcəyini dərk etməyə çağırmaq idi.

Bu sammitdə zorakılıq, terrorizm və ekstremizm pislənmiş,dünyadakı vəziyyətin yalnız tolerantlıq və dinlərarası dialoq ilə sağlamlaşdırılacağı haqqında  danışılmışdır.

Daha sonra İtaliyanın Avropa Şurası Sədrliyi ilə Fransanın Strasburq şəhərində keçirilən dinlərarası dialoqa həsr edilən “Din və sülh, din və insan hüquqları üzrə dinlərarası dialoq” dayanıqlı sülhün təmin edilməsi yolunda atılmış digər önəmli addımlardandır. Bu konfransda 15 ölkənin 20-dən çox dini rəhbəri iştirak etmişdir. Bu konfransda Qərb ölkələrində yaranan islamafobiya, ksenofobiya, antisemitizm ilə mübarizə aparmaq, İslam dininin necə məhəbbət, dialoq, sülhsevər din olduğunu, terrorizm və zorakılıqla heç bir əlaqəsi olmadığını sübuta yetirmək barədə danışıqlar aparılmışdır. Dini radikalizmin və ekstremizmin dindən gizli məqsədlər üçün, zorakılıq və münaqişələrə təhrik etmək üçün bir vasitə kimi istifadə edildiyi qeyd edilmişdir.

Fransa papası və Misir dövlətinin şeyxinin verdikləri birgə bəyannamə də (Katolik kilsəsi və Əzhəri-Şərif) bu yerdə xüsusilə qeyd edilməlidir.

Həqiqətən bu bəyannamə özündən əvvəlki bütün beynəlxalq sənədlərə əsaslandığı üçün dünya sülhünün qurulmasında dinlərin rolunun əhəmiyyətindən xəbər verir.(4, s.289-297) Bu bəyannamə aşağıdakıları bəyan edir:

1. Yeni nəsli materialist düşüncəyə uymaqdan, kor-koranə mənfəət siyasətinin təhlükəsindən qorumaq üçün gənclərdə, cavanlarda dini meylləri oyadan, yaxşılıq, xeyirxahlıq, ədaləti təbliğ edən, birgəyaşayışın, insan qardaşlığının, qarşılıqlı əlaqə dəyərlərini yüksəldən və sülhə inama çağıran dinlərə möhkəm inancı təmin edir.

2. Çoxmillətlilik, dil, din, irq, cins, rəng ayrı-seçkiliyi etmədən bütün bəşəriyyətin etiqad azadlığını, müxalifət azadlığını, din, inam, ifadə və düşüncə azadlığını təmin edir.

Hər bir insanın ədalət içərisində yaşamasını, layiqli həyat sürməsini təmin edir.

3. Dialoq, tolerantlıq mədəniyyətinin anlaşılması və yayılmasına, başqalarını qəbul etmə, insanlar arasında birgəyaşayışa, bir çox iqtisadi, siyasi, sosial problemlərin və bəşəriyyətin böyük bir hissəsini əhatə edən pis mühitin qarşısının alınmasına köməklik edir.

4. Ali fəzilətli əməllərin, əxlaqın yayılmasına çağırmaq və yersiz mübahisələrin qarşısını almaq üçün ictimai, insani və mənəvi dəyərlər barəsində müştərək dialoqlar tələb edir.

5. İbadət yerlərini hücum ilə hədəfə almaq, onları söküntü və bombalamağa məruz qoymaq cəhdləri açıq-aşkar beynəlxalq hüququn pozulması sayıldığı üçün məscid, kilsə, məbəd kimi ibadət yerlərinin beynəlxalq hüquq və norma səviyyəsində qorunmasını təmin edir.

6. Təkcə Şərqdə və Qərbdə deyil, həmçinin Şimalda və Cənubda insanların təhlükəsizliyini təhdid edən, ən pis ehtimalla onları qorxu , tərəddüd, dəhşətə bürüyən mənfur terrorizmi, zülm,əziyyət, viranəlik, kasıblıq, aclıq siyasətini, din haqqında yanlış təsəvvür yayanları, dövlət cinayətlərinin törədilməsini və terrorizmin mediada işıqlandırılmasının təmin edilməsini, terrorçuluq hərəkatlarını dəstəkləməyi şiddətlə qınayır.

7. Vətəndaşlıq məfhumunun möhkəmlənməsi üçün onlar arasında nifaq toxumları səpən, ayrı-seçkilik salan, onların haqqlarını, hüquqlarını pozan, müsadirə edən digər vətəndaşları pisləyir.

8. Şərqlə Qərb arasında olan bu əlaqənin hər iki dövlət üçün son dərəcə zəruri bir əlaqə olduğunu bildirir. Bu əlaqə mədəni dialoq və mübadilə yolu mədəniyyətlərin zənginləşməsinə yol açır. Belə ki, Qərb müəyyən xəstəlikləri müalicə etmək üçün Şərq mədəniyyətində, Şərq də mədəni, texniki, elmi inkişaf üçün Qərb mədəniyyətində lazımi xüsusiyyətlər tapa bilər. Bu müqavilə əsasında istər Şərqdə , istərsə də Qərbdə bəşəriyyət üçün həyat qarantisini asanlaşır, ümumi müştərək insan haqqları möhkəmlənir.

9. Qadınları inanc prinsiplərinə zidd olan ictimai, tarixi təzyiqlərdən, cinsi istismardan, onlara bir əşya kimi davranılmasından azad etmək və həmçinin qadın ləyaqətinə xələl gətirən kobud adətlərdən, qeyri-insani əməllərdən qorumaq üçün onlara təhsil, işləmək, siyasi hüquqlarını həyata keçirmək hüququnun verilməsini təmin edir. Qadının tam hüquqlarını əldə etməsinə mane olan qanunvericiliyə də dəyişiklik tələb edir.

10. Hər bir uşağın ailə qayğısı görmək, ailədə böyümək, təhsil almaq kimi

hüququ vardır, heç bir uşaq bundan məhrum edilməməlidir, bu haqqlar təmin edilməli və qorunmalıdır. Uşaqların elektron platformada məruz qaldıqları təhlükələrin qarşısı alınmalı, uşaq ticarətinə isə qadağa qoyulmalıdır.

11. Yaşlıların, zəiflərin, həssas insanların, xüsusilə qayğı və diqqətdən məhrum olanların hüquqlarını da qorumaq bu müqavilənin əsas prinsiplərindəndir.

Katolik kilsəsi və Əzhəri-Şərifin birgə bəyannaməsi bugün dünyanın bir çox ölkəsində tətbiq olunur. Bu bəyannamənin prinsipləri bütün beynəlxalq və regional səviyyələrdə yayılır və birçox qanunvericilik mətnlərinə, qərarlarına, siyasətə, tədris proqramlarına, elmi materiallara tərcümə edilir.

Habelə bu bəyannamə bütün elm-təhsil institutlarında, universitetlərdə, məktəblərdə yeni nəslin xeyirxahlıq və sülhə çatması üçün, hər yerdə məzlumların, yazıqların, ehtiyac sahiblərinin haqqlarının müdafiə edilməsi üçün mühüm rol oynayır.

**Nəticə**

Bu izahlardan sonra bu nəticəyə gəlmək olar ki, dünyadakı bir çox din dünya sülhünü təmin edəcək bütün əsasları özündə daşıyır. Bu dinlərdə sülh

şəraitində yaşamağı təmin edəcək nələrisə görmək mümkündür. Dünya dinləri sülh, əmin-amanlıq yolunda öz əsas prinsiplərini açıqladıqları halda, din mənsubları, din adamları vəzifələrini düzgün icra etməyərək dini siyasətə alət edirlər. Nəticədə, nə öz dinləri, nə də digər dinlər haqqında məlumatı olmayan insanlar dini hisslərlə deyil də, praqmatik hisslərlə hərəkət edirlər. Bu yerdə dini qurumlara, din adamlarına böyük iş düşür. Əgər din adamları, dini liderlər sülhü təmin etmək üçün düşmənçilik yerinə birlik, qarşılıqlı yardımlaşma, əməkdaşlıq yolunu tutarlarsa, o zaman ortaya çox böyük işlər çıxar. Bugün siyasi, iqtisadi, etnik təzyiqlərə baxmayaraq həqiqətləri söyləyə bilən dini liderlərə ehtiyac vardır və dünya sülhünün təminində onların payı çox böyükdür. Yəhudilik, Xristianlıq, İslam, Hinduizm, Buddizmin müqəddəs kitablarında din adına edilən bütün zülmlər qadağan edilmişdir. Bu dinlərin heç biri dini terorizmə icazə vermir. Hər birinin əsas fəlsəfəsi insan həyatına dəyər vermək və onu qorumaqdır. Ona görə də, bugün müxtəlif din mənsubları, dindaşlar və dini liderlər dünya sülhünü təmin etmək, dinlərin birliyini, tolerantlığını dünyaya yaymaq üçün bir araya gəlib dini hisslərin ifrat şəkildə oyanmasının, kor-koranə fanatizm, toqquşma, eqoizm, fərdiyyətçilik meyllərinin bütün formaları ilə mübarizə aparır, əxlaqi təlim, düzgün yetişdirmə, doğru tərbiyənin təbliği ilə yeni nəsillərin ruhunda dini sevgi hissinin yenidən canlanması üçün hüzur dolu dini mesajlarını insanlığa, bəşəriyyətə çatdırır, dünya sülhünü təmin etmək üçün əllərindən gələni əsirgəmirlər. Ümid edirik ki, fərqli dinə mənsub dini liderlərin birgə təşəbbüsləri dünya birliyi, qardaşlığı və dostluğunun inkişafına öz töhfəsini verəcək.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Mehmet A. 2003. Dünya barışının sağlanmasında din temsilçilerine düşen sorumluluk. İstanbul. “Bahar” yayınları. s.195-200
2. Stefon Mailer. 2012. History, Belief and Practice. New York. Britannica Educational Publishing. s.152
3. Şahin Mehmet. 2003. Dinlerin işbirliğinin yol açısı olarak dinler tarihi. Konya. “Derin” yayınları. s.140
4. Fəransis Babu vəl- Əzhəru-şərif və Tariqu Saab. Vasiqatul əxəvvatil insaniyyəti. Misir. Dərul hukuməi lil nəşri. 2021. s.289-297
5. Pochta YU.M. Islam i politika: Uchebnoe posobie. Moskva. RUDN.2008
6. Malashenko A.V. Islamskaya al'ternativa i islamistskii proekt. Izdatel'stvo “Ves' MiR”, Moskva. 2006
7. Ataullah Siddiqui. Christian Muslim Dialogue in the Twentieth Century. London. Macmillan. 1997.

**Лала Фамиль кызы РАГИМЛИ**
*Докторант кафедры истории и философии религии*
*Азербайжанского Института Теологии*
E-mail: lala.rahimli@inbox.ru

# РОЛЬ МЕЖРЕЛИГИОЗНОГО ДИАЛОГА В ОБЕСПЕЧЕНИИ МИРА ВО ВСЕМ МИРЕ

## Резюме

Как известно, социальные, религиозные и политические проблемы в мире привели к исчезновению социального мира. Некоторые исторические события, катастрофы, совершенные преступления, несправедливость, политическая напряженность привели к тому, что представители разных религий и люди отдаляются друг от друга и относятся друг к другу с ненавистью. В то же время сегодня существуют достаточно радикальные подходы,

препятствующие развитию мира во всем мире, особенно те, которые выступают против религиозного братства.

А также случаи лишения прав и свобод человека в мире, непризнания свободы женщин, оставления детей, стариков и беженцев без особой заботы и внимания, невозможности представителям разных религий свободно совершать свои религиозные обряды. встречается отсутствие свободы вероисповедания, религиозная дискриминация и религиозные преследования.

Однако во многих частях мира предпринимаются определенные шаги по устранению подобных ситуаций. Успешная политика реализуется в сфере религиозной деятельности.

В статье объединяются представители разных религий для призыва к миру, исследуются принципы принятой ими вместе мирной декларации и работа по созданию поликультурного и толерантного мира.

**Ключевые слова:** *межрелигиозный диалог, мир во всем мире, сосуществование, экстремизм, встреча религиозных лидеров*

**Lala Famil RAHIMLI**
Doctoral student of History and Philosophy of Religion,
Azerbaijan Institute of Theology
E-mail: lala.rahimli@inbox.ru

## THE ROLE OF İNTERRELİGİOUS DİALOGUE İN ENSURİNG WORLD PEACE

**Summary**

As is known, social, religious and political problems in the world have caused the disappearance of social peace. Some historical events, disasters, committed crimes, injustices, political tensions have led to distance members of different religions and people from each other and behave each other hatefully. At the same time, today there are quite radical approaches that prevent the development of world peace, especially those that oppose religious brotherhood.

Also, the cases of deprivation of human rights and freedoms in the world, women's freedom not being recognized, children, the elderly, and refugees being left out of special care and attention, the inability of members of different religions to perform their religious rituals freely, the lack of freedom of religious belief, religious discrimination and religious persecution are encountered.

However, in many places of the world, certain steps are being taken to eliminate such situations. A successful policy is implemented in the field of religious activity.

In the article, members of different religions come together to call for peace, the principles of the peace declaration that they made together, and the works for creating a multicultural and tolerant world are also investigated.

**Keywords:** *interreligious dialogue, world peace, coexistence, extremism, meeting of religious leaders*

**Daxil olub:** 02.01.2023